Tarix və onun problemləri, №4 2009

**RAFİQ İSMAYILOV**
*Bakı Dövlət Universitetinin dosenti*

# ABBASİLƏR MİSİRİNDƏ ŞƏHƏRİN SOSİAL TƏYİNATI

Abbasilər xilafəti şəhərlərindən bəhs edən görkəmli şərqşünas A.Mets onların Aralıq dənizi, Cənubi Ərəbistan, Babilistn və Mərkəzi Asiya memarlıq üslubuna xas dörd tipinin, həm də paralel olaraq mövcudluğunu yazır [19, 330]. Bizim tədqiqat obyektimiz Misirə gəlincə, buradakı islam öncəsi şəhərlər Aralıq dənizi tipli idilər. Cənubi Ərəbistan tipli şəhər isə öz başlanğıcını ərəb-müsəlmanların ölkəyə gəlməsi tarixindən götürür. Bu baxımdan ən parlaq nümunə Fustatdır. Əsası 641-ci ildə və paytaxt olaraq qoyulan şəhər Abbasilər dövründə daha da böyüdü. Fustatın özündə, eləcə də ətrafında salınan Əskər (750-ci il) və Qətai (870-ci il) peyk-şəhərlərində böyük və möhtəşəm saraylar və qəsrlər, planlı yaşayış binaları inşa olundu. Şəhərin sosial funksiyaları və ölkə həyatında rolu artdı. Ən başlıcası isə, Fustat şəhər üçün xarakter sayılan sivilizasiya mərkəzinə çevrildi.

Digər şəhərlərə gəlincə, öncədən deyək ki, onlar yerləşmə coğrafiyasına görə iki yerə bölünürlər: 1. Aşağı Misir şəhərləri; 2. Yuxarı Misir şəhərləri. Bunların başında da, - özəlliklə də Aşağı Misir şəhərlərinin, - tarixən ölkənin rəmzi sayılan İskəndəriyyə gəlirdi [17, 32].

Yeri gəlmişkən, istər İskəndəriqyə, istərsə də o biriləri haqqında məlumatlar verməzdən öncə, onların çoxu üçün önəmli və ortaq olan bir məqama toxunmaq istərdik. O da bundan ibarətdir ki, Misir Xilafətin tərkibinə qatıldığı zamandan həmin şəhərlərin funksional vəzifələri sırasına bir yenisi də əlavə olunmuşdur. Belə ki, ilk zamanlar müsəlman ərəblərin yerli əhali ilə birgə yaşamasına icazə verilməsə də [10, 127; 20, IV, 26], çox tezliklə bu siyasətdən əl çəkildi. Ərəblər istər hərbçi, istərsə də mülki əhali qismində Misir şəhərlərində yerləşməyə başladılar. Bunu həm ərəblərin özlərinin təhlükəsizliyi, həm də ölkə hüdudlarının qonşu dövlətlərin artmaqda olan basqınlarından qorunması tələb edirdi [9, IV, 344]. Ümumiyyətlə isə, ərəblərin üzləşdiyi yeni hərbi şərait Misirin sərhəd şəhərlərində, xüsusilə də ölkənin qezeyində süğur adlanan müdafiə sisteminin yaradılmasına gətirdi. O, müxtəlif təyinatlı hərbi tikililəri və qurğuları özündə ehtiva edirdi. Qaynaqlar həmin sırada rabitə, əlaqə məntəqəsi mənasını verən «ribat»ı xüsusi vurğulayırlar [1, 220-230].

Beləliklə də, ölkə hüdudlarının xarici təhlükələrdən qorunmasının təmini Misir şəhərinin başlıca funksiyalarından birinə çevrildi [17, 252]. Başlanğıcını İskənədriyyədən götürən bu fəaliyyət sahəsi az sonra quzeydə Tinnis, Dumyat, Fərama, Əriş, Brullus, Rəşid, Həmmam, Buheyra, Şata, Əştum, Varida, Şəcərəteyn kimi şəhər və yaşayış məskənlərinə, Həbəş və Bəccə ölkələri ilə hüdudlarda yerləşən Harsaya, Nuba ilə hüdudlarda Asuan şəhərinə, Sudan və bərbər ölkələri hüdudlarında əl-Vahat və Qusa, hətta quzey-batıda Bərqəyə də, - bura 300 h (912/193) ilindən Məğribə aid olmuşdur, - şamil edilmiş və beləliklə də bütün Misiri ehtiva etmişdir [17, 265, 555; 28, 235-237].

Qeyd edək ki, Misir Xilafətin tərkibində olduğu bütün dövrlərdə sözügedən müdafiə sisteminin möhkəmləndirilməsi və genişləndirilməsinə mərkəzi hakimiyyət tərəfindən xüsusi önəm verilmiş, yeni istehkamlar, qala-qüllələr və divarlar inşa edilmişdir. Həmin qəbildən olan işlərə Abbasilər dövründə daha ciddi yanaşılmışdır. Təbiidir ki, o da Misirə qonşu ölkələr tərəfindən edilən hərbi müdaxilələrin fəallaşması və artması ilə bağlı idi. Bu baxımdan qaynaqların məlumatları yetərincədir və onlardan bəzilərini xatırlatmaq istərdik. Məsələn, İskəndəriyyədə müdafiə istehkamları və köhnə qala divar-

larının təmiri və təzələnməsi, yenilərinin inşa edilməsi şəhərin 811-ci ildə bütünlüklə qala divarları içərisinə salınması ilə başa çatdı [7, 123-124]. Və yaxud. Xəlifə əl-Mütəvəkkil (847-861) dövründə (843/844-cü ildə) Dumyat, Tinnis və Fərama şəhərlərində bir sıra yeni qalalar tikilmişdir [16, 201; 20, I, 180-214; 23, 201]. Bu cür hallar çoxdur və yuxarıda xatırlanan digər şəhərlər üçün də xarakterdir. Onlar haqqında hər birindən bəhs edilərkən söz açılacaqdır. Bu səbəbdən də istərdik ki, əsas diqqəti bəzi şəhərlərin timsalında Abbasilər dövründəki ümumi durum haqqında müəyyən bir mənzərə yaratmağa yönəldək:

İskəndəriyyə ölkənin böyük və məşhur şəhəri kimi əvvəlki əhəmiyyəti və rolunu saxlayırdı. İqtisadi baxımdan sənətkarlıq, ən başlıcası isə daxili və xarici ticarət mərkəzi sayılırdı. Xristianlıq və iudizm dinləri başçılarının iqamətgahı bu şəhərdə yerləşirdi. Müsəlmanların ilk məskunlaşdığı və sayının çox sürətlə artdığı bu şəhərdə islam arxitekturasının hegomon yer alması, çox saylı məscidlərin, müxtəlif təyinatlı dini və mədəni tikililərin inşasını zəruri etmiş, birdəfəlik olaraq onun inikşaf fəlsəfəsinin yönünü müəyyənləşdirmişdir;

Tinnis şəhərinin yerləşmə coğrafiyası haqqında qaynaqların məlumatlarında fərqli məqamlar varsa da, həmin yerin ciddi strateji əhəmiyyətə malik olmasını hamı yazır. Adını götürdüyü Tinnis gölündəki adada yerləşən şəhər istər Nil çayı, istərsə də Aralıq dənizi vasitəsi ilə təkcə Misirə deyil, dünyaya açılan qapı rolunu oynayan və bütün cəhətlərdən gələn ticarət gəmilərinin lövbər saldığı liman idi [23, 201; 28, 338]. Torpağı duzlu olduğundan əkin-biçinə yararlı deyildi [12, 41; 8, 134; 27, II, 56]. Bu səbəbdən də şəhərə meyvə və digər ərzaq məhsulları yaxın və uzaq kəndlərdən gətirilirdi [24, 39, 40]. Lakin burada balıq ovu və balıq məmulatları, -qaynaqlara görə 70-ə yaxın növ, - istehsalı xeyli inkişaf etmişdi. Əhalinin ərzaqa olan ehtiyacının müəyyən hissəsi məhz onun hesabına ödənilirdi. Həmin baxımdan quşçuluq, quş ovu və məhsuları da az rol oynamırdı. Yəqub əl-Həməvi burada yüz növ daimi və köçəri quş növünün olduğunu yazmışdır [27, II, 35, 45].

Qaynaqların məlumatlarına görə Abbasilər dövründə Tinnis bir hüdud-süğur şəhəri kimi xüsusi əhəmiyyət daşıyırdı. Həmin səbəbdən də şəhərin bütün çevrəsi boyunca istehkamlar və divarlar inşa edilmşidi. Bu işə xəlifə Vasiq (842-847) dövründə 230 (844/45)-cu ildə başlanılmış və xəlifə əl-Mütəvəkkil (847-861) dövrundə yekun vurulmuşdur [27, II, 32-33]. Tinnis möhkəm divarlarla əhatə olunmuş qala ilə birləşmişdi və həmin qalada bölgəni qoruyacaq döyüşçülər yerləşirdi [20, I, 180-181]. Onların da sırasında tinnislilər üstünlük təşikl edirdi[5, IV, 78].

Qaynaqlar onu da xüsusi vurğulayırlar ki, Tinnisin içməli su ilə təchizatı həmişə böyük problem olmuşdur. Ən əski zamanlardan bu məsələnin həllinə ciddi önəm verilmiş, müxtəlif təyinatlı yerüstü və yeraltı su tutarları sistemi yaradılmışdı [22, I, 379; 27, II, 52]. Bura suyun saxlanması üçün səharic-yeraltı su anbarları, cəbbab-su quyuları və məsani' – yağış suları üçün hövuzlar, eləcə də, Nil çayından şirin suyun nəqli üçün dəvalib – su çarxları, pərləri şəbəkəsi daxil idi [22, I, 379; 27, II, 52]. Həmin sahədə işlər Abbasilər dövrundə də davam etdirilmişdir. Məsələn, qaynaqlar xəbər verir ki, 269(882/83)-cu ildə Misirin hakimi Əhməd ibn Tulunun Tinnisə ziyarəti zamanı onun göstərişi ilə burada bir sıra tikililər inşa edilmişdir. Qaynaqlar onların arasında «əmir (Əhməd ibn Tulun) sahəricləri – yeratlı su anbarları» kimi tanınan su saxlama şəbəkəsini və bazarda tikilən çox sayda ticarət cərgələrini xüsusi fərqləndirirlər [27, II, 52-53]. Qeyd edək ki, səhariclər bir qayda olaraq ayrı-ayrı fərdlərə, - bu, ailə də ola bilərdi, məhəllə də- məxsus idi. Eyni zamanda hamının istifadə etdiyi səharicilər də vardı. Əhməd ibn Tulunun inşa etdirdiyi səharicilər hamının istifadəsi üçün idi [27, II, 52-53]. Bu səbəbdən onların biri cümə məscidinin, digəri bazarın yanında və bir başqası isə şəhərin

qərb hissəsində inşa edilmişdi [27, II, 52-53]. Bu qəbildən olan bir səharic də Tinnisin mərkəzində idi və o da IX əsrin əvvəllərində Əmin-Məmun qardaşları arasında gedən mübarizənin fəal iştirakçısı və Cüzam qəbiləsinin görkəmli ordu başçılarından Əbd əl-Əziz əl-Cərəvi [15, 70-71] tərəfindən inşa edilmişdi [27, II, 50]. Tinnis bu özəllikləri ilə yanaşı, həm də güclü iqtisadi strukturlara malik idi. Sözügedən dövrdə həmin sahədə baş verən inkişaf da orta çağ müəlliflərinin diqqətindən kənarda qalmamışdır. Onlar bu şəhərin toxuculuq və toxuma paltarlar istehsalı mərkəzi kimi çox məşhur olduğunu, burada həmin sənətkarlarıq məhsulları və ovçuluq –balıqçılıq məmulatları ticarətinin çox inkişaf etdiyini məxsusi vurğulayırlar. Məsələn, əl-Müqəddəsi (X əsr) yazır: «Tinnis gözəl bazarlar şəhəridir» [23, 70]. Nasir Xosrova görə həmin bazarlarda olan dükanların sayı on minə çatırdı. Təkcə yüz əttar (ətriyyat –R.İ.) dükanı vardı»[24, 37], «iki min beş yüz dükan isə digər mallar üçün idi» [22, I, 385-386].

Qeyd edək ki, toxuculuqla məşğul olan sənətkarların öz peşələrini ürəkdən [bi mərh va surur] sevmələri də tarixçilərin diqqətindən yayınmamışdır [27, II, 58; 20, I, 177-178].

Tinnislə bağlı qaynaqların belə bir maraqlı məlumatını məxsusi olaraq xatırlatmaq istərdik: sözügedən dövrdə təkcə şəhərin özündə deyil, onun ətrafında da arası kəsilmədən abadlıq işləri aparılmış və nəticədə Tinnis dörd yeni, - çağdaş anlamda, - qəsəbənin [rabad] əhatəsinə düşmüşdü. Onların da hər birində yaşayış binaları, müxtəlif təyinatlı tikililər və şəhərin siyasi-iqtisadi həyatı ilə bağlı müvafiq strukturlar fəaliyyət göstərirdi. Məsələn, şəhərin batısındakı qəsəbədə gəmiqayırma tərsanəsi, inzibati-idarə binası [dar əl-imarə] və kişilər üçün hamamlar, doğusundakında böyük divan [əd-divan əl-kəbir] vardı. Divan müxtəlif sahələrə məsul olan bölmələrdən ibarət idi. Bir bölmə Nilin səviyyəsi qalxdıqda hövuzları doldurmalı olan su çarxlarının və hamamların fəaliyyətinə nəzarət edirdi. Bu qəsəbədə gips və əhəng istehsalı müəssisələri, eləcə də hökmdarların at tövləsi vardı. Güney ətrafdakı qəsəbədə isə başqa bir su çarxları sistemi vardı və o buradakı hövuzlar və hamamların su ehtiyacılarını təmin edirdi. Sözügedən strukturlar, eləcə də qəsəbədə mövcud olan çoxlu ovçu komaları, balıq və quş məmulatları istehsalı müəssisələri böyük divanın başqa bir bölməsi tərəfindən idarə olunurdu. Dördüncü qəsəbəyə gəlincə, o, digərlərindən onunla fərqlənirdi ki, burada çoxlu məscidlər və kilsələr, toxuculuq mallarının ağardılması və paltarlara nəqşlər vurulması üçün gərək olan materiallar və sexlər vardı. Çox sayda hamamlar mövcud idi ki, onlardan otuz altısı ümumi əhaliyə xidmət göstərirdi. Məscidlərin sayına gəlincə, əl-Məsudi bu rəqəmin yüz altmışa çatdığını söyləyir və həm də xüsusi vurğulayır ki, onların hər birinin minarəsi vardı [22, I, 385-386], ikisi isə cümə məscidi idi [22, II, 385-386; 24, 38]. IX əsrin əvvəllərində buranı ziyarət etmiş xristian müəllifə istinad edən görkəmli tədqiqatçı A.Mets də sözgedən dövrdə Tinnisi «əhalinin və kilsələrin çox olduğu şəhər» kimi dəyərləndirir və kilsələrin də əksəriyyətinin məhz sözügedən qəsəbədə yerləşdiyini yazır [19, 330].

Ümumiyyətlə, Tinnis Abbasilər Misirinin, deyilənlərdən də göründüyü kimi, toxuculuğun çox inkişaf etidiyi məşhur şəhəri kimi böyük iqtisadi rola malik idi və eyni səviyyədə də bir süğur-hüdud qalası olaraq ciddi önəm daşıyırdı və bu hal xaçlı yürüşləri dövrünə kimi dəyişməz qaldı.

Tinnisin qonşuluğunda yerləşən Dumiyat şəhərinə gəlincə, o, qaynaqlara görə yarandığı zamandan Misirdə ən böyük hərbi istehkam rolunu oynamışdır və elə buna görə də «Misir ölkəsinin qıfılı» [26, II, 28] sayılırdı. Şəhər bu funksiyasını bəhs etdiyimiz dövrdə də saxlayırdı. Qaynaqlarda deyilir: «Dumyat şəhəri keşikçi süğur – hüdud məntəqələrindən (qalalarından –R.İ.) idi və buraya ilin müəyyən edilmiş günlərində ölkənin hər tərəfindən keşikçi əsgərlər [murabitun] göndərilirdi» [23, 201, 203].

Tarix və onun problemləri, №4 2009
Keşikçi əskərlərlə bağlı belə bir məqamı məxsusi vurğulamaq istərdik ki, onlar, əgər belə demək olarsa, döyüşən ordunun nə tərkibinə daxil idi, nə də komandanlığına tabe idi. Hətta zamanın müxtəlif vaxtlarında ölkə valilərinin özləri həmin əsgərlərlə birlikdə və bir sırada xidmət göstərir, bununla da həmin qüvvələrin nə qədər böyük rolu və əhəmiyyəti olduğunu göstərmək istəyirdilər. Məsələn, məlumdur ki, vali əl-Hur ibn Yusuf (726-727) 108(726)-cı ildə üç ay [16, 24 ] və digər vali Yəzid ibn Abdallah (835-867) 245/859-ci ildə [16, 202] Dumyat süğur məntəqəsində xidmətdə olmuşlar.

Onu da əlavə etmək istərdik ki, Dumyatın bu rolu təkcə Abbasilər dövrü üçün xarakter deyildi. O, bu rolu həm Roma-Bizans dövründə, eləcə də erkən Xilafət dövründə [28, 127; 18, III, 324] layqincə oynamışdır. Lakin Abbasilər dövründə həmin baxımdan əhəmiyyəti daha da artmışdı. Orada olan qalalar, qala qapıları, bürclər və qala divarları o dərəcədə möhkəmləndirilmişdi ki, birincisi, şəhər qurudan və dənizdən alınmaz bir məkana çevrilmişdi; ikincisi, onların şöhrəti hər yana yayılmışdı [ 23, 202; 5, IV, 801; 20, I, 314-315 ].

Şəhərin belə bir fərqli cəhəti də xüsusi vurğulanır ki, o, yerləşdiyi bölgədə «ən ürəyə yatan, ən geniş, ən göz oxşayan, ən işıqlı, ən çox meyvəli, binaları ən yaraşıqlı, suyu ən gen-bol, sənətkarlığın ən geniş yayıldığı, parçaları ən yüksək keyfiyyətli, hamamları ən bərli-bəzəkli, divarları ən mütənasib və çətinliklərin ən az olduğu şəhər idi» [23, 202]. Şəhərə şöhrət gətirən cəhətlər sırasında burada toxuculuq sənətinin çox inkişaf etdiyi [23, 202; 27, II, 602] və mühüm ticarət limanının olması idi [21, 328].

Bütün bu səbəblərdən də şəhər əhalisinin sayı da aramsız olaraq artırdı. Əhali xristian qibtilər və ora köç edən müsəlman ərəblərdən ibarət idi. Həm də avtoxtan qibtilər uzun müddət sayca dominant, etiqadca xristian, ən başlıcası isə toxuma və toxuculuq sənətlərinin mahir ustaları olaraq qalırdılar [23, 202; 27, IV, 85-86]. Lakin Abbasilər dövrü boyunca buraya yeni-yeni ərəb qəbilələrinin axını və daimi dislokasiya üçün çoxsaylı əskəri birləşmələrin göndərilməsi mövcud duruma təsirsiz qalmadı. Misirin digər şəhərlərində olduğu kimi, Dumiyatda da etno-konfessional inteqrasiya gücləndi və genişləndi. Sonucda yerli qibtilərin gəlmə ərəblərlə qaynayıb qarışması qaçılmaz oldu, onların assimilyasiyaya uğrayaraq ərəbləşməsi və müsəlmanlaşması aramsız və yüksələn prosesə çevrildi [13, 129-139].

Qaynaqlarda o da qeyd edilir ki, Dumyatın yaxın ətrafında həm idarəçilik baxımından, həm də digər həyati ehtiyaclar səbəbindən onunla sıx bağlı olan bir sıra yaşayış məskənləri də vardı. Bunlardan ən önəmliləri aşağıdakılardır:

1). Şata –Tinnis və Dumyat şəhərləri arasındakı yolun üzərində və Tinnis gölü sahilində yerləşən bu kənd [23, 202-203] Misirin ərəblər tərəfindən işğalı zamanından etibarən ölkənin suğur-hüdud və ribatat-rabitə məntəqələri şəbəkəsinin tərkibinə salınmışdı.

Şata iqtisadi cəhətdən də önəm daşıyırdı. Burada istehsal olunan toxuculuq məmulatları ona böyük şöhrət qazandırmışdı [28, 338]. «Əş–şatavi adlanan paltarlar eyni qəbildən olan məşhur əd-dumati və ət-tinnisi paltarından geri qalmırdı» [28, 338]. Şatanın bu keyfiyyətləri Abbasilər dövründə də saxlanılırdı və qaynaqların məlumatları məhz həmin zaman kəsimində inkişafın artaraq ən yüksək həddə çatdığını söyləmək qənaətini verir;

2). Bura –qaynaqlara görə Nil çayı sahilində yerləşən bu yaşayış məskəni bir müəllif tərəfindən qala –husn [28, 338], digərələri tərəfindən şəhər-mədinə [25, 81] və başqa birisi tərəfindən kənd-qaryə [11, 57] adlandırılırır. Təbiidir ki, ilk olaraq qala kimi təqdim edilən Buranın ən önəmli funksiyası hərbi istehkam rolunu oynamasıdır. Buranı şəhər adlandıranlar məxsusi qeyd edirlər ki, orada paltar və kağız hazırlanırdı. Kənd olaraq isə Bura əkin sahələri, taxıl tarlaları, meyvə bağları, bostanlar və təbii gözəlliklər

məkanı kimi vəsf edilir, «əl-əmaim əl-buriyyə» - Bura çalmalarının onunla bağlılığı söylənilir;

3). Dəbiq – Dumyatın kəndlərindən biri idi. O, bahalı paltarlar və bəzəkli toxuma çalmaları ilə tanınırdı [20, I, 225-226];

4). Əbvan – Dəqhəliyyə kurasına daxil idi və ona «əl-Əbvaniyyə» də deyirdilər. Əbvan da Dumyatın kəndəlrindən olub, özünün «əl-buniyyə» adlanan toxuma məmulatları ilə məşhur idi. Orada yalnız xristianlar, başqa sözlə, qibtilər yaşayırdı [20, I, 226].

Qeyd edək ki, Aşağı Misirin digər şəhərləri haqqında da müəyyən mülahizələr söyləmək üçün qaynaqlarda kifayət qədər məlumatlar vardır. Ancaq onların məzmunu sözügedən şəhərlər barəsində deyilənlərlə təqribi eyniyyət təşkil edir. Odur ki, təkrar olmasın deyə, şərhlərimizi burada tamamlayıb, ölkənin ikinci yarısı Yuxarı Misir, - Səid, -şəhərlərindən bəzilərinin məxsusi cəhətlərini diqqətə çatdırmaq istərdik.

Bu baxımdan tədqiqatımızın ehtiıa etdiyi zaman kəsimində bölgənin mərkəzi şəhəri sayılan Qus ciddi önəm daşıyır. Qaynaqlarda deyilir: «Qus şəhəri o qədər inkişaf etmişdi ki, Səiddə –Yuxarı Misirdə şəhərlərin ən dəbdəbəlisi və onların ən fəxarətlisi olmuşdu» [20, I, 226]. «Misir ölkəsində Fustat və İskənədriyyədən sonra ondan abad və ondan əzəmətli şəhər yox idi» [6, 11].

Qaynaqlarda həm də qeyd olunur ki, Qus Yuxarı Misirin – Səidin, - digər şəhərlərindən aqrar ətafının genişliyi və bolluğu ilə fərqlənirdi [24, 71].

Bununla yanaşı, şəhərdə bazarlar, hamamlar, mehmanxanalar, şəkər qamışı emalı və şəkər istehsalı sexləri kimi iqtisadi və sosial xarakterli strukturlar fəaliyyət göstərirdi. Orada çoxlu məscidlər və yüksək səviyyəli məktəblər vardı [11, 49]. Xarici tacirlərin qalması və mallarının saxlanılması üçün hər cür şərait yaradılmışdı [4, 52 ]. Şəhər bütünlüklə qala divarları ilə əhatə olunmuşdu [18, III, 41].

Qaynaqlardan o da bəlli olur ki, işgüzar fəaliyyət qala divarları xaricində də güclü idi. Burada salınmış «rabad» adlanan geniş və böyük məhəllələr sözun tam mənasında ticarətin təşkili və əmniyyətin yüksək səviyyədə olduğu qaynar xarici ticarət mərkəzləri idi. Həmin məhəllələr Qusu Qırmızı dəniz sahilindəki «ticarət limanı» [28, IV, 184] kimi tanınan Eyzab şəhəri ilə birləşdirən yolun başlanğıcında yerləşirdi və bu baxımdan söyləmək olar ki, orada daha çox tranzit ticarətinə xas olan əməliyyatlar aparılırdı. Qaynaqlarda elə o cür də deyilir «[tacirlər] yüklərindən və artıq yüklərdən azad olurdular və yola düşürdülər» [27, II, 335].

Sonda onu da qeyd edək ki, Qus şəhəri onun adını daşıyan vilayətin mərkəzi idi və Ərmənt, Əsna, Əbnud, Ədfu və Suğur Asuan kuralarını özündə birləşdirən vilayətin mərkəzi idi [21, 108]. Vilayət valisinin iqamətgahı burada yerləşirdi. Valinin Qus vilayətinin ehtiva etdiyi şəhərlərə, əyalətlərə və iri kəndlərə başçılar təyin etmək hüququ vardı. Bu kuralardan da bölgə üçün ən böyüyü və əhəmiyyətlisi, - təbiidir ki, Qusdan sonra, - Asuan, əl-Müqəddəsiyə görə, hətta tamamilə müstəqil kura olduqdan sonra belə yenə də Qus valisinə tabe idi [23, 194-195]. Asuan valisi onun müavini sayılırdı.

Asuan şəhərinin özünə gəlincə, o da bölgənin iri şəhərlərndən idi. İrəlidə də deyildiyi kimi, suğur şəhəri olaraq Nuba ölkəsinə qarşı dayanan hərbi istehkam idi. Digər şəhərlərdən onunla fərqlənirdi ki, bura özündən o qədər də uzaq olmayan dağ-mədən məmulatlarının əldə edilməsi və ticarətində gərəkli rol oynayırdı [28, 35-337].

Bölgənin fərqli yaşayış məskənlərindən birisi də Eyzab sayıla bilər. Belə ki, orta çağ müəllifləri onun kənd və ya şəhər olması haqqında heç nə yazmasalar da, məxsusi qeyd etmişlər ki, «Eyzab beccəlilərin üsyanlarının yatırılmasında rolu və yeri olan mühüm suğurlardan birisi idi» [1, 241]. O, ümumiyyətlə həmin qəbilələrin əhatəsində yerləşirdi [5, V, 25]. Eyzab, irəlidə də deyildiyi kimi, ticarət limanı olaraq daha çox məşhur idi. Ora quru və dəniz yolu ilə Misiri Hicaz, Yəmən və daha uzaq ölkələrlə və əksinə,

həmin ölkələri Misir və onun vasitəsilə Quzey Afrika və bir sıra Avropa ölkələri ilə birləşdirən başlıca məntəqə idi [20, I, 202].

Yuxarı Misirin bir sıra şəhərləri də vardı ki, onlar daha çox iqtisadi mərkəzlər kimi tanınırdı. İstərdik ki, bu şəhərlərdən bəziləri haqqında qaynaqlarda söylənilən başlıca fikirləri diqqətə çatdıraq. Məsələn:

1.Əl-Bəhnəsə–abad və əhalisi çox olan şəhər idi. Burada müxtəlif xalqlar cəmləşmişdi [11, 74]. Əl-Bəhnəsə toxuculuq sənəti ilə məşhurlaşmışdı; [21, 104];

2.Taha–şəhər adlanırdı [21, 104; 18, III, 378, 395] və müxtəlif növlü toxuculuq peşələri üzrə ixtisaslaşması ilə şöhrət qazanmışdı [23, 72; 11, 76];

3.Əl-Əşmuneyn – əs Səidin – Yuxarı Misirin ən böyük şəhərlərindən idi [20, I, 238]. Çoxlu tarlararı və bir-birinə yaxın kəndləri olan eyni adlı əyalət mərkəzi kimi müsəlman ərəblərin diqqətini [20, I, 238] cəlb etmiş, bir sıra qəbilələr burada məskunlaşmışdılar. Onların da arasında şan-şöhrət sahibləri az deyildi. Ümumiyyətlə isə, şəhər müəyyən növlər üzrə toxuculuq məmulatları istehsalı ilə məşhur idi və orada çox sayda toxuculuq sexləri var idi [12, 53];

4.Əhnas – adab və mədəni, əhalisi çox, təbii gözəllikləri və zənginlikləri bol, müxtəlif bitkilər yetişən tarlaları olan kiçik şəhər idi. Orada hər cür qida məhsulları çox və ucuz idi. Ticarət yerləri (köşkləri) yararlı və bazarları gəlirli idi [11, 75]. Şəhər həm də bir sıra paltaralın istehsalı üzrə ixtisaslaşmışdı [28, 252].

Abbasilər Misiri şəhərlərinin bəziləri haqqında orta çağ qaynaqlarından gətirdiyimiz misallar belə söyləməyə əsas verir ki, bir sıra hüdud şəhərlərinin, - istər Aşağı, istərsə də Yuxarı Misirdə olsun, - funksional təyinatında hərbi məqam üstünlük təşkil etmişdir. Bütünlükdə şəhərlərin hamısını birləşdirən ən mühüm amil isə onların iri və xırda kuraların mərkəzi olması idi. Başqa sözlə desək, bu şəhərlər mərkəzi hakimiyyətin bütün ölkəboyu yayılmış idarəçilik şəbəkəsi idi və hər şeydən öncə, mövcud siyasi rejimin var olmasına xidmət edirdi. Onlar, eyni zamanda, ölkənin müəyyən iqtisadi ehtiyaclarının ödənilməsində də gərəkli xidmətlər göstərirdilər və bu zəmində daha çox sənətkarlıq, - hətta bəzi hallarda aqrar, - məmulatları istehsalçıları, həm də satıcıları və alıcıları rolunu oynayırdılar. Dini, elmi və mədəni mərkəz olaraq ölkə və onun xalqını bütövləşdirən sivilizasiyanın və əqli-intellektual birliyin yaranmasında, bərqərar olmasında və inkişafında həlledici amil idilər.

## *ƏDƏBİYYAT:*

1.Əl-Bəlaziuri. Futuh əl-buldan. Leyden, 1866

2.Блок М. Апология истории или ремесло историка. Перевод с французского Е.М.Лысенко. Москва, 1973

3.Большаков О.Г. Средневековый город Ближнего Востока (VII – середина XIII в.). Москва, 1984

4.İbn Cubeyr. Rihlə(t) İbn Cubeyr. Əl-Qahira, 1955

5.İbn Dudmaq İbrahim. Əl-intisar li-vasitət aqd əl-əmsar, əl-cüz ər-rabi. Əl-Qahira, 1893

6.Əbu-l-Fida İsmail. Əl-müxtəsər fi-axbar əl-bəşər, əl-mucəlləd əl-əvvəl. Beyrut, 1959

7.Foster A.M. Əl-İskəndəriyyə: tarix va dəlil, tərcəmə Həsən Bəyyumi. Əl-Qahira, 2000

8.İbn Hövqəl. Əl-məsalik va-l-məmalik. Leyden, 1874

9.İbn Xəldun. Əl-Muqaddəmə. Əl-Qahira, 1930

10.Ибн Абд ал-Хакам. Завоевание Египта, ал-Магриба и ал-Андалуса. Перевод с арабского, предисловие и примечания С.Б.Певзнера. Москва-Наука, 1985

11.Əl-İdrisi Muhəmməd. Kitab nuzhət əl-muştaq fi zikr əl-əmsar va-l-aqtar va-l-buldan. Rumiyyə, 1892

12.Əl-İştəxri İshaq. Əl-məsalik va-l-məmalik. Leyden, 1870

13.Исмаилов Р.И. Распространение ислама и преемственность в арабо-мусульманской культуре в Египте, - Актуальные проблемы современного ислама, -Институт Востоковедение АН Азерб. ССР. Баку, 1986
14.İsmayılov R. Nasir Xosrovun «Səfərnamə» əsərində Misir şəhərlərinin təsviri, - «Orta əsr Şərqində şəhərlər və ticarət»-toplusu. ADU-nun nəşri, Bakı, 1982
15.İsmayılov R. İ.Fustat-Bağdad: birgəolma və qarşıdurma. Bakı, 2009
16.Əl- Kind əbu Ömər. Vulat Mısr. Beyrut, 1959
17.Qudamə ibn Cəfər. Kitab əl-xərac və san'ə(t) əl-kitabə(t). Leyden, 1889
18.Əl-Qəlqəşəndi Şihab əd-din. Subh əl-i'şa fi sinaə(t) əl-inşa. Əl-Qahira, 1913
19.Мец А. Мусульманский ренессанс. Перевод с немецкого, предисловие и библиография Д.Е.Бертельса. Москва-Наука, 1973
20.Əl-Məqrizi Taqi əd-din. Əl-məvaiz va-l-i'tibar fi zikr əl-xitət va-l-asar. Bulaq, 1270h.
21.İbn Məmati. Kitab qəvanin əd-dəvavin. Əl-Qahira, 1943
22.Əl-Mə'sudi əbu-l-Həsən. Muruc əz-zəhəb va məadin əl-cövhər. Əl-Qahira, 1303h.
23.Əl-Müqəddəsi Şəms əd-din. Kitab əhsən ət-təqasim fi mə'rifəti -l-əqalim. Leyden, 1877
24.Nasir Xosrov. Səfərnamə. Tərcəmə Yəhya əl-Xəşşab. Əl-Qahira, 1945
25.Safa Ali Muhəmməd Abd əl-lah. Mudun Mısr əs-sinaiyyə fi əl-əsr əl-islami. Əl-Qahira, 2000
26.Əs-Suyuti Cəlal əd-din. Hüsn əl-muhadara fi axbar Mısr va-l-Qahira. Əl-Qahira, 1327h.
27.Yaqut əl-Həməvi. Mucəm əl-buldan. Leypsiq, 1868
28.Əl-Yəqubi Əhməd. Kitab əl-buldan. Leyden, 1892

**РАФИГ ИСМАИЛОВ**
***доцент Бакинского Государсвенного Университета***

## «СОЦИАЛЬНОЕ ПРЕДНАЗНАЧЕНИЕ ГОРОДА В АББАСИДСКОМ ЕГИПТЕ».

В статье рассматривается вопрос социального предназначения города в Египте в период правления Аббасидов и указывается, что в этой сфере всегда имел преобладающее значение военный аспект. Такое положение было более характерно для всех пограничных городов во главе с Александрией, таких как Туннис, Дамьетта, Ариш, Фарама, Гус, Асуан, Ейзаб и др. Обжединяющим фактором для них было то, что указанные города являлись провинциальными центрами- (Кура-Пагархия - авт.). Другими словами, города становились административно-управленческой сетью центральной власти, распространяемой на всю страну. В тоже время, они играли ключевую роль в формировании и развитии обжединяющей население цивилизации, являясь центрами ремесла, внутренней и внешней торговли, религии, науки и культуры.

**RAFIG ISMAYILOV**
***Assistant Professor of Baku State University***

## SOCIAL DESTINATION OF THE CITY IN THE EGYPT DURING ABBASY DYNASTY

The article covers social destination of the city in the Egypt during Abbasy dynasty. It is underlined that the military issues always prevailed in this area and that was characteristic for Isgandariyya, as well as other boundary cities like Tinnis, Damietta, Gus, Asuan, Eyzab, etc. Being centre of Pagarkhiya was uniting criteria for all of them. In other words, cities were administrative management network of the central authorities around the entire country. In the meantime, being a center for internal and foreign trade, religion, science and culture, thosee cities played key role in the formation and development of the civilisation, which served for consolidation of the country and its nation.

***Rəyçilər: t.e.d.N.Ç.Axundova, t.e.d. S.A.Məmmədov.***
***BDU-nun Tarix fakültəsinin «Asiya və Afrika ölkələri» tarixi kafedrasının 05 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***